| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **28.09.2007** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **2413** |
| **ADI** | **Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-09-2007, Nəşr nömrəsi: 09, Maddə nömrəsi: 914)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **28.09.2007** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **010.000.000<br>430.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **01.07.2011** |

**Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyun tarixli 2272 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2007-ci il mayın 3-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu"nun icrasını və iki ölkə arasındakı əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin: [1]

***Komissiyanın həmsədri*** [2]

*Azərbaycan Respublikasının xarici işlər naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini*
*Azərbaycan Respublikası ədliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini* [3]
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri.*

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Mərakeş Krallığı arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 sentyabr 2007-ci il
2413

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 22 iyul 2009-cu il tarixli **412** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589** )
2. 7 iyun 2011-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti 9 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 06, maddə 520)**
3. 8 fevral 2012-ci il tarixli **1996** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti 10 fevral 2012-ci il, 032, "Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 104)**
4. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
5. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
6. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414)**
7. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
8. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
9. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677)**
10. 23 iyul 2021-ci il tarixli **2804** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 25 iyul 2021-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 817)**
11. 31 may 2022-ci il tarixli **3299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 540)**

SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 22 iyul 2009-cu il tarixli **412** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**) ilə 1-ci bəndində "**Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini** " sözləri ilə, "**Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini**" sözləri "**Nigar Əliyeva - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini**" sözləri ilə, "**Vadim Xubanov - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini** " sözləri "**Vadim Xubanov - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini**" sözləri ilə əvəz edilmişdir.

7 iyun 2011-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti 9 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 06, maddə 520**) ilə 1-ci hissəsində "**Natiq Qasımov – Azərbaycan Respublikası vergilər nazirinin müavini** " sözləri "**Sahib Ələkbərov – Azərbaycan Respublikası vergilər nazirinin müavini**" sözləri ilə, "**Teymur Mehdiyev – Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini** " sözləri "**Ədalət Vəliyev – Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli **1996** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti 10 fevral 2012-ci il, 032, "Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 104**) ilə 1-ci hissəsində "**Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** " sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika nazirinin müavini** " sözləri "**energetika nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları nazirinin müavini**" sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**Bəhram Əliyev**" sözləri "**Seyfəddin Talıbov**" sözləri ilə, "**Qulu Novruzov**" sözləri "**Firudin Qurbanov**" sözləri ilə, "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin müavini**" sözləri ilə və **"Sabir Ağabəyov**" sözləri "**Tarik Əliyev**" sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri "**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

[2] 23 iyul 2021-ci il tarixli **2804** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 25 iyul 2021-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 817**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| | ~~**Komissiyanın həmsədri**~~ |
| ~~Elmar **Məmmədyarov**~~ | ~~– Azərbaycan Respublikasının xarici işlər naziri~~ |
| | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~İlqar **Fətizadə**~~ | ~~– Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini~~ |
| ~~Toğrul **Musayev**~~ | ~~– Azərbaycan Respublikası ədliyyə nazirinin müavini~~ |
| ~~Sahib **Ələkbərov**~~ | ~~– Azərbaycan Respublikası vergilər nazirinin müavini~~ |
| ~~Sahil **Babayev**~~ | ~~– Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini~~ |
| ~~Gülməmməd **Cavadov**~~ | ~~– Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~*Seyfəddin **Talıbov***~~ | ~~– Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Ədalət **Vəliyev**~~ | ~~– Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~*Firudin **Qurbanov***~~ | ~~– Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Nigar **Əliyeva**~~ | ~~– Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~*Elmir **Vəlizadə***~~ | ~~*– Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |
| ~~Səfər **Mehdiyev**~~ | ~~– Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Vadim **Xubanov**~~ | ~~– Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~*Tarik **Əliyev***~~ | ~~– Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri~~ |

[3] 31 may 2022-ci il tarixli **3299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 540**) ilə 1-ci hissədə "**nəqliyyat, rabitə və yüksək texnologiyalar**" sözləri "**rəqəmsal inkişaf və nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.